## “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 394; 2004, 4, maddə 203, 6, maddə 396; 2007, 8, maddə 751; 2014, 11, maddə 1341; 2016, 12, maddə 2035; 2017, 6, maddə 1030, 7, maddə 1276; 2018, 1, maddə 31; 2019, 6, maddə 991) aşağıdakı dəyişikliklər edilsin:

1. 7-1-ci maddənin adına “Turizm vizası” sözlərindən sonra “və turistlərə verilən elektron vizalar” sözləri əlavə edilsin.

2. 7-1.6-cı maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciətə ən geci 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində baxılır, imtina üçün əsas olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada viza verilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 may 2020-ci il
101-VIQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 27 dekabr 2021-ci il tarixli **448-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 19 fevral 2022-ci il, 38 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 88**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 27 dekabr 2021-ci il tarixli **448-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 19 fevral 2022-ci il, 38 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 88**) ilə ləğv edilmişdir.